**UOT 78.**
**ORCID: https://orcid.org/0009-0008-2094-6668**
**DOI: 10.52094/XXUW5712**

**Aysel Əzizova Firdovsi qızı**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
**Doktorant**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
aysel.azizova1991@gmail.com

# REGİONAL ARAŞDIRMALARDA TARİXİ-MÜQAYİSƏLİ METODUN ROLU

## (AĞBABA AŞIQ MÜHİTİNİN NÜMUNƏSİNDƏ)

**Xülasə:** Müəllif məqalədə Ağbaba etnomədəni mühitinə məxsus aşıq havalarının tədqiqi üçün tarixi-müqayisəli metodun tətbiqini təklif edir. Bu metod öz növbəsində kompleks və çoxşaxəli yanaşmanı, bölgənin musiqi irsinin regional araşdırmalar kontekstində dərindən öyrənilməsini tələb edir.

Tədqiqatın əsas məqsədi Ağbaba aşıq mühitinə daxil olan nümunələrin musiqi qatının vahid bədii prosesdən təcrid olunmuş halda deyil, bütöv etnik-mədəni sistemin bir hissəsi kimi öyrənilməsidir. Xüsusilə Aşıq İskəndər Ağbabalının ifasında yazıya alınmış “Otalı qızı”,“Sarıyaylıq”, “Diyarbəkiri” kimi aşıq havalarının struktur-tipoloji təhlili bu havaların semantik məzmununun dərk edilməsi üçün zəmin yaratmışdır. Müəllifin fikrincə Ağbaba aşıq mühiti ənənələri XX əsrin sonuna qədər məhz vahid prosesin tərkibində inkişaf etmiş və tarixi-ictimai kontekstdə digər mühitlərlə mübadilə vəziyyətində fəaliyyət göstərmişdir.

Aparılan müqayisəli təhlillərin sonucunda “Kərəmi”, “Dastanı”, “Cəngi Koroğlu” havalarının təhlil olunan havalar ilə sintaqmatik bənzərlikləri üzə çıxarılmış, ortaq morfoloji qanunauyğunluqlar aşkar olunmuşdur. Bu faktorlar əsasında müəllif belə qənaətə gəlir ki, Ağbaba aşıq mühitinə xas olan havalar azər türklərinin etnogenezisi ilə bağlı olan mühüm tarixi mənbələrdən biri kimi çıxış edə bilər.

**Açar sözlər:** Ağbaba aşıq havaları, semantik təhlil, sintaqmatik bənzərlik, aşıq qaydaları, regional araşdırmalar.

Tarixi–müqayisəli metod humanitar elmlərdə müxtəlif mədəni hadisələr arasında tarixi əlaqələri, onların yayılma arealını və struktur paralelləri müəyyənləşdirməyi hədəfləyən analitik yanaşmadır. Bu metodun mahiyyəti hər bir ənənənin yalnız lokal çərçivədə deyil, həm də digər bölgələrlə tarixi və funksional münasibətlər kontekstində araşdırılmasını tələb edir.

Tarixi-müqayisəli metodun türk dillərinin tarixi sintaksisi sahəsində tətbiqi O.Böhtlink və V.V.Radlov kimi tədqiqatçıların fəaliyyəti ilə bağlıdır. O.Böhtlinkin 1851-ci ildə Sankt-Peterburqda alman dilində nəşr olunmuş “Yakutların dili haqqında” (Über die Sprache der Jakuten) əsərində yakut dili digər türk dilləri ilə müqayisəli şəkildə öyrənilmişdir. V.V.Radlovun əsərləri isə müasir türkologiya ədəbiyyatında türk dillərinin tarixi-müqayisəli tədqiqi üçün konseptual elmi baza yaratmış və bu sahədə aparılan sistemli araşdırmaların təməli kimi qiymətləndirilmişdir (Ercilasun, A. B., 2007).

Təsadüfi deyil ki, tarixi–müqayisəli yanaşmanın tətbiqini əsaslandıran mühüm tezislər müasir antropologiya və folklor nəzəriyyəsində öz əksini tapmışdır. Burada ənənənin formalaşma mexanizmi ilə bağlı səsləndirilən fikirlər ənənənin həm sabitlik, həm də dəyişmə proseslərinin vəhdəti əsasında təşəkkül tapdığını göstərir. Amerikalı folklorşünas H.Qlassi (Glassie H.) ənənəni sabitlik və dəyişmə mexanizmlərinin paralel fəaliyyəti əsasında formalaşan mədəni sistem kimi izah edir və qeyd edir ki, “böyük nümunələr kiçik fəaliyyətlərin nəticəsində yaranır; tarix, mədəniyyət və insan amili ənənə daxilində bir araya gəlir” (Glassie, 1995, s. 409). Bu nəzəri çərçivə etnomusiqişünaslıqda həm aşıq havalarının arxaik qatlarının, həm də mühitlərarası əlaqələrin araşdırılması üçün etibarlı metodoloji istiqamət müəyyənləşdirir. Aşıq havalarının öyrənilməsində tarixi-müqayisəli metodun tətbiqi musiqi ənənəsinin tarixi inkişafına dair faktları aşkarlaya bilər, eyni zamanda, həmin ənənənin müəyyən dövrün, bölgənin mədəni-xüsusiyyətlərini necə əks etdirdiyini aydınlaşdıra bilər.

Tarixi–müqayisəli metodun tətbiqi ilə bağlı araşdırmalarda etnomusiqişünas A.Merriamın konsepsiyası aktuallıq kəsb edir (Merriam, 1964:37-38). A.Merriam etnomusiqişünasın fəaliyyətində ilk növbədə bölgə materialının toplanmasına və həmin materialın iki əsas istiqamət üzrə sistemli şəkildə işlənilməsinə diqqət yetirir: 1) musiqi davranışının sosial və funksional kontekstini müəyyənləşdirən etnoqrafik təhlil, 2) musiqi materialının struktur təhlili. Merriamın fikrincə, bu istiqamətdə aparılan araşdırmalar musiqi davranışının mahiyyətini anlamaq və tədqiqat fərziyyələrinin əsaslandırılmasını təmin etmək üçün zəruri ilkin faktoloji baza yaradır. Bu səbəbdən tarixi–

müqayisəli metodda materialın əvvəlcə struktur baxımından dəqiq təsviri və sistemləşdirilməsi sonrakı mərhələdə oxşarlıqların xarakterini (genetik bağlılıq, tipoloji paralellər və ya lokal dəyişikliklər) əsaslı şəkildə müəyyənləşdirməyə imkan verir.

Bruno Nettl tarixi–müqayisəli yanaşmanın əsas məqsədini müxtəlif musiqi ənənələri arasında müşahidə olunan struktur oxşarlıqların səbəblərini anlamaqda görür (Nettl, 2005:86-88). Onun fikrincə, bu oxşarlıqların izahı təkcə mədəniyyətlərarası əlaqələrlə məhdudlaşmır, onlar həm də insanın musiqi davranışına xas olan ümumi, təkrarlanan qanunauyğunluqlardan qaynaqlana bilər. Nettl iki əsas səbəbi fərqləndirir: Genetik bağlılıq – tarixi əlaqələr, yayılma, ünsiyyət nəticəsində müxtəlif bölgələrdəki musiqi ənənələrinin oxşar struktur xüsusiyyətlər qazanması. Tipoloji oxşarlıq **–** müxtəlif mədəniyyətlər bir-biri ilə əlaqədə olmasa belə, insanın musiqi yaratma və qavrama mexanizmlərinin universallığı nəticəsində struktur bənzərliklərin yaranması. Nettlin konsepsiyası tarixi–müqayisəli metodun işləmə mexanizmini daha dəqiq müəyyənləşdirir. Birinci mərhələ – struktur bənzərliyin müəyyənləşdirilməsi, ikinci mərhələ – onların genetik və ya tipoloji səbəblərinin aydınlaşdırılmasıdır.

Etnomusiqişünas P.E.Savic (Savage P.E.) ilə psixologiya və neyrobiologiya üzrə alim S.Braunun (Brown S.) birgə tədqiqatlarında (Savage P., Brown S., 2013, 148-197) müqayisəli musiqişünaslığın müasir inkişaf istiqamətləri müəyyənləşdirilir  və bu sahənin əsasını təşkil edən beş tədqiqat xətti – təsnifat, mədəni təkamül, insan tarixi, musiqi universalları və bioloji təkamül – sistemləşdirilir. Müəlliflər göstərirlər ki, müxtəlif mədəniyyətlərə məxsus musiqi nümunələrinin müqayisəli təhlili musiqi sistemlərinin həm ortaq, həm də spesifik strukturlarını müəyyənləşdirməyə imkan verir və nəticələr tarixi–müqayisəli yanaşmanın müasir etnomusiqişünaslıqda elmi-metodoloji əhəmiyyətini  təsdiqləyir.

Ümumtürk musiqisi kontekstində aparılan müqayisəli tədqiqatlar arasında Y.Şipoşun *“Comparative Research on the Folk Music of Turkic and Hungarian People” (2006)* kitabı xüsusilə qeyd olunmalıdır.Y.Şipoş geniş coğrafi ərazini əhatə edən müqayisəli tədqiqatların nəticəsində Anadolu, Azərbaycan, Qazaxıstan və digər regionlarda macar xalq musiqisi ilə struktur paralellər təşkil edən melodik tipləri  müəyyənləşdirməyə müvəffəq olmuşdur.

K.Dadaş-zadənin “Aşıqşünaslığın tarixi və nəzəriyyəsi” dərsliyində tarixi-müqayisəli metod etnomusiqişünaslığın ümumi metodologiyasından qaynaqlanan və musiqi eposşünaslığında tətbiq olunan əsas araşdırma

üsullarından biri kimi təqdim edilir. Alimin qeyd etdiyi kimi, tədqiqat obyektinin müəyyən zaman çərçivəsində və tarixi kontekstdə izahını mümkün edən bu yanaşma ənənələrin dinamikasını, variantlaşma prosesini və struktur dəyişmələri müqayisəli əsasda müəyyənləşdirməyə imkan verir (Dadaş-zadə K., 2019:39).

Düşünürük ki, aşıq havalarının araşdırılmasında "zaman çərçivəsi" anlayışı ənənənin müəyyən formalaşma mərhələləri ilə bağlıdır: melodiyanın ilkin arxaik strukturunun yaranması və onun ənənə daxilində sabitləşmiş formaya çevrilməsi, zamanla müxtəlif bölgələrdə lokal dəyişikliklərə məruz qalması,ifaçı səviyyəsində müşahidə olunan variantların meydana gəlməsi-bütün sadalanan proses ardıcıl mərhələlər kimi nəzərdən keçirilə bilər. Bu yanaşma havaların fərqli mühitlərdə aldığı formaları sistemləşdirməyə şərait yaradır və qismən tarixi aspektdə izləməyə imkan verir.

Beləliklə, tarixi–müqayisəli metod musiqi materialının mənşəyini və yayılma mexanizmini müəyyənləşdirmək üçün ilk növbədə struktur baxımından etibarlı faktların əldə edilməsini tələb edir. Bu səbəbdən struktur–tipoloji və semiotik təhlil tarixi–müqayisəli yanaşmanın hazırlıq mərhələsini təşkili üçün mühüm rol oynayır: birinci mərhələdə musiqi nümunələrinin quruluşu, ritm–intonasiya modeli və sintaqmatik təşkilli müəyyən edilir; ikinci mərhələdə bu oxşarlıqların xarakteri – genetik bağlılıq, lokal modifikasiya və ya tipoloji paralellər – aydınlaşdırılır; yalnız üçüncü mərhələdə həmin məlumatlar əsasında musiqi materialının tarixi inkişaf xətti və regional formalaşma prosesi haqqında nəticə çıxarmaq mümkün ola bilər.

Qeyd olunan metodların müstəvisində aparılan müqayisəli təhlillər sonucunda Ağbaba etnomədəni mühitində ifa olunan "Otalı qızı", "Sarıyaylıq", "Diyarbəkiri" havaları ilə "Kərəmi", "Dastanı", "Cəngi Koroğlu" havalarının sintaqmatik bənzərlikləri üzə çıxarılmış, ortaq morfoloji qanunauyğunluqlar aşkar olunmuşdur:

- "Otalı qızı" və "Yanıq Kərəm", eləcə də "Sarıyaylıq" və" "Dastanı", "Diyarbəkiri" və "Cəngi Koroğlu" havalarının sintaksisində aşkarlanan bənzər sintaqmatik quruluşlar bu havalarda ritm–intonasiya baxımından modifikasiya olunduğunu göstərir.

- Bu sintaqmalar sabit melodik formul qismində mətnin semantik təşkili üçün mühüm funksional rol oynayır, bədii mətnin emosional–məzmun qatını formalaşdıran tanıdıcı əlamətlər kimi çıxış edir; onlar variasiya nəticəsində formal dəyişikliklərə məruz qalsa da, daşıdıqları semantik kontur sabitliyini qoruyur.

Qeyd edək ki, formulluq anlayışı şifahi ənənədə əvvəlcədən formalaşmış və mütəmadi şəkildə təkrarlanan ifadə vahidlərini bildirir. Musiqi müstəvisində bu, sabit melodik sintaqma, ritm–intonasiya modeli və ya emosional məzmunu ifadə edən struktur nüvəsi şəklində təzahür edir. Bu vahidlər kollektiv yaddaşın emosional məna daşıyıcısıdır. Lordun yanaşmasına görə şifahi epik ənənədə ifa zamanı baş verən ani yenidənqurma prosesi improvizasiya kimi tam spontan yaradılış deyil. Belə ki, ifaçı ənənədən gələn ifadə vahidlərini yenidən canlandırır və icra zamanı onların situativ şəkildə yeni təşkilini həyata keçirir. Bu səbəbdən ifadakı dəyişikliklərin mümkün olmasına baxmayaraq, formulun struktur sabitliyi qorunur və epik ənənənin kompozisiya çərçivəsi pozulmur. Nəticədə eyni ifaçının müxtəlif icra variantları arasında fərqlər mövcud olsa da, bu fərqlər formulun quruluşuna xələl gətirmir (Lord A.B., 1960, s. 27–28; 68–70) Bu baxımdan "Yanıq Kərəmi" tipinə məxsus sintaqmanın "Otalı qızı" havasında, "Cəngi Koroğlu" havasına məxsus sintaqmanın "Diyarbəkiri" havasında transformasiya olunmuş şəkildə səslənməsi həmin havaların emosional–semantik sahəsinin eyni formullu element üzərində qurulduğunu göstərir

V.V.Radlovun türkdilli epik ənənə ilə bağlı müşahidələri formulluğun daha geniş mədəni kontekstdə anlaşılmasına imkan verir (Radlov, V.V. (1866–1907)). Onun türk epik mətnlərinin təhlili ilə bağlı yazdığı fikirləri göstərir ki, türk epik ənənəsində sabit kompozisiya strukturu və təkrarlanan formullar ifa zamanı mətnin təşkili üçün baza funksiyası daşıyır, sənətkar epik məzmunu yaratdıqda həmin hazır elementləri situasiyanın inkişafına uyğun şəkildə kombinasiya edir. Bu formullar yalnız poetik quruluşun texniki komponentləri deyil, həm də ənənənin semantik sabitliyini qoruyan dayaq vahidləridir. Xüsusilə K.Reyxl epik ənənədə sabit struktur vahidlərin ifa prosesində variasiyaya uğrasa belə, kompozisiya bütövlüyünü və mənalandırıcı funksiyasını qoruduğunu vurğulayır (Reyxl, 1992, s. 257). Bu yanaşma göstərir ki, melodik və poetik formullar yalnız texniki element deyil, həm də ənənənin semantik sabitliyini təmin edən mədəni yaddaş vahidləridir.

Ağbaba aşıq havalarında müşahidə olunan sabit melodik formullar Radlovun təsvir etdiyi ümumtürk formulluq sisteminin musiqidə təzahür edən paralelidir. "Yanıq Kərəmi" və "Koroğlu" havaları tipinin semantik yükünü daşıyan intonasiya modeli Ağbaba mühitində situativ emosional kontekstə uyğun şəkildə aktivləşir və lokal modifikasiyalarla yeni icra formasında təzahür edir. Bu proses

Ağbaba ənənəsinin qədim türk epik düşüncəsinin struktur prinsiplərini – sabit formul, hazır təsvir vahidlərini bu günə qədər qoruyub saxladığını göstərir.

Ağbaba ənənəsində melodik formulların situativ şəkildə aktivləşməsi ifanın yalnız struktur səviyyədə deyil, həm də davranış və emosional yaddaş müstəvisində baş tutur. Bu nöqtədə formulların bədii performansa çevrilməsini Riçard Skençnerin *(Richard Schechner)* performans nəzəriyyəsi, xüsusilə *"restored behavior"* – bərpa olunmuş davranış konsepsiyasının əsasında elmi cəhətdən izah etmək məqsədəuyğundur. Skençnerin yanaşmasına görə performans əvvəlki emosional vəziyyətlərin, təcrübələrin və davranış modellərinin yenidən icrası əsasında formalaşır (Skençner, 2013:29, 35). "Otalı qızı" və "Sarıyaylıq" havalarının yaranması da bu prinsipin nümunəsidir. Aşıq sosial-emosional situasiyanı yaşadığı anda havanı təkcə spontan reaksiya əsasında deyil, eyni zamanda ənənədə mövcud olan davranış modelləri üzərində yenidən qurur, ifa edir və beləliklə şəxsi təcrübəni formullu musiqi materialı üzərində performativ bədii formaya çevirir. Bu baxımdan düşünürük ki, Skençnerin kollektiv yaddaşın davranışa kodlaşdırılması prinsipinin aşıq ifaçılığının əsas mexanizmlərindən biri kimi qəbul edilməsi məqsədəuyğundur. Hesab edirik ki, aşıq sənətində hər bir ifanın müstəqil variant kimi nəzərə alınması və havanın ilkin formasının tam bərpası və ya elmi baxımdan müəyyən olunması mümkünsüz görünür.

Beləliklə, qeyd olunan müddəaları nəzərə alaraq tarixi-müqayisəli metodun tətbiqi ilə Ağbaba havalarının struktur–semantik quruluşunda mədəni yaddaş və epik düşüncə baxımından qədim ənənələrə əsaslandığını təsdiqləyən elementləri aşkar etdik və bu havaların kompleks şəklində təhlilinə müvəffəq olduq.

Aparılan araşdırma göstərdi ki, melodik formulların davamlılığı, sintaqmatik strukturların paralellikləri və performativ davranış modellərinin sabitliyi Ağbaba aşıq mühitinin həm ümumtürk musiqi-epik sisteminə bağlılığını, həm də özünəməxsus lokal xüsusiyyətlərini qoruyub saxladığını ortaya qoyur. Bu nəticələr tarixi-müqayisəli metodun yalnız oxşarlıq və fərqlərin müəyyənləşdirilməsi üçün deyil, həm də musiqi ənənəsinin formalaşma mexanizmlərini, kollektiv yaddaşda kodlaşdırılan struktur vahidləri və performativ davranış qaydalarını anlamaq üçün etibarlı metodoloji çərçivə olduğunu nümayiş etdirir.

## Ədəbiyyat siyahısı

Blacking, J. (1973). *How Musical Is Man?* Seattle: University of Washington Press.

Dadaşzadə, K. (2019). *Aşıqşünaslığın tarixi və nəzəriyyəsi*. Bakı. 2019.s.39

Ercilasun, A. B. (2007). *Türk lehçeleri grameri*. Ankara: Akçağ Yayınları.

Glassie, H. (1995). *Tradition*. Philadelphia: University of Pennsylvania Press.

Lord, A. B. (1960). *The Singer of Tales*. Cambridge, MA: Harvard University Press.

Merriam, A. P. (1964). *The Anthropology of Music*. Evanston: Northwestern University Press.

Nettl, B. (2005). *The Study of Ethnomusicology: Thirty-One Issues and Concepts*. Urbana: University of Illinois Press.

Reichl, K. (1992). *Turkic Oral Epic Poetry: Traditions, Forms, Poetic Structure*. Bloomington: Indiana University Press.

Radlov, V. V. (1866–1907). *Obraztsy narodnoy literatury tyurkskikh plemen* (Vols. 1–10). (Образцы народной литературы тюркских племен.) Sankt-Peterburg.

Radlov, V. V. (1893–1911). *Opyt slovarya tyurkskikh narechiy* (Vols. 1–4). (Опыт словаря тюркских наречий.) Sankt-Peterburg: Imperatorskaya Akademiya Nauk.

Schechner, R. (2013). *Performance Studies: An Introduction*. New York: Routledge.

Sipos, J. (2006). *Comparative Research on the Folk Music of Turkic and Hungarian People*. Budapest: Akadémiai Kiadó.

Savage, P. E., & Brown, S. (2013). Toward a new comparative musicology. In *Analytical Approaches to World Music* (Vol. 2, No. 1), 1–30.

**Aysel Azizova Firdovsi gizi**

# THE ROLE OF THE HISTORICAL-COMPARATIVE METHOD IN REGIONAL STUDIES (BASED ON THE EXAMPLE OF THE AGBABA ASHIQ ENVIRONMENT)

In this paper, the author proposes the application of the historical-comparative method for the study of ashug melodies specific to the ethnocultural environment of Agbaba. This method, in turn, requires a complex and multidimensional approach, implying an in-depth examination of the region's musical heritage within the context of regional studies.

The main objective of the research is to study the musical layer of the samples belonging to the Agbaba ashug environment not as isolated phenomena, but as integral components of a broader ethno-cultural system. In particular, the structural-typological analysis of the melodies "Otalı gizi", "Diyarbekiri", "Sariyaylig," recorded from the performance of Ashug Iskender Agbabali, provides a basis for understanding the semantic content embedded in these pieces. According to the author, the traditions of the Agbaba ashug environment developed within a unified artistic process up to the late 20th century and operated in a state of mutual exchange with other regional environments within a historical and social context.

As a result of comparative analyses, syntagmatic similarities and common morphological patterns have been identified between the studied melodies and those based on the melodic structures of "Keremi", "Dastanı", "Jangi Koroglu". Based on these findings, the author concludes that the melodies characteristic of the Agbaba ashug environment may serve as valuable historical sources related to the ethnogenesis of the Azerbaijani Turks.

**Key words:** Agbaba ashug melodies, semantic analysis, syntagmatic similarity, ashug patterns, regional studies

**Айсель Азизова Фирдовси кызы**

## РОЛЬ ИСТОРИКО-СРАВНИТЕЛЬНОГО МЕТОДА В РЕГИОНАЛЬНЫХ ИССЛЕДОВАНИЯХ (НА ПРИМЕРЕ АШЫГСКОЙ СРЕДЫ АГБАБА)

В данной работе автор предлагает применение историко-сравнительного метода для исследования ашыгских мелодий, характерных для этнокультурной среды Агбаба. Указанный метод, в свою очередь, предполагает комплексный и многомерный подход, требующий глубокого изучения музыкального наследия региона в контексте региональных исследований. Основная цель исследования – рассмотреть музыкальный пласт образцов, принадлежащих ашыгской среде Агбаба, не как

изолированные явления, а как составные элементы более широкой этнокультурной системы. В частности, структурно-типологический анализ мелодий «Оталы гызы», «Диярбекири», «Сарияйлыг», записанных в исполнении Ашыга Искендера Агбабалы, позволяет выявить их семантическое содержание. По мнению автора, традиции ашыгской среды Агбаба вплоть до конца XX века развивались в рамках единого художественного процесса и функционировали в условиях взаимного обмена с другими региональными средами в историко-социальном контексте. В результате сравнительного анализа выявлены синтагматические сходства и общие морфологические закономерности между исследуемыми мелодиями и образцами, основанными на мелодических структурах «Кереми», «Дастаны», «Джанги Кёроглу». На основе этих данных автор приходит к выводу, что мелодии, характерные для Агбабинской ашыгской среды, могут рассматриваться как ценные исторические источники, связанные с этногенезом азербайджанских тюрков.

**Ключевые слова:** Ашыгская среда Агбаба, семантический анализ, синтагматическое сходство, ашыгские мелодии, региональные исследования.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 05.06.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 10.06.2026**